II BÖLMƏ.
İNVESTİSİYA CƏLBEDİCİLİYİ, BİZNES RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ VƏ MALİYYƏ BAZARI

UOT 330:01

Paşa Allahverdi oğlu MAHMUDOV
doktorant, Kooperasiya Universiteti
E-mail: pasha.mahmudov.98@mail.ru
10.30546/1.72.2024.19

İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN KATEQORİYASI VƏ ONUN MÜASİR MƏZMUNU

Xülasə

Tədqiqatın məqsədi – “investisiya cəlbediciliyi” kateqoriyasının mövcud nəzəri və konseptual əsaslarının təhlilindən ibarətdir.

Tədqiqatın metodologiyası – sistemli yanaşma, müqayisəli təhlil.

Tədqiqatın tətbiqi əhəmiyyəti – investisiya iqtisadiyyatı ilə bağlı tədqiqatlarda elmi resurs kimi istifadənin mümkünlüyü.

Tədqiqatın nəticələri – “İnvestisiya cəlbediciliyi” kateqoriyasının aspektlərinin nəzəri əsasları ümumiləşdirilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - investisiya cəlbediciliyi kateqoriyasının aydınlaşdırılması ilə bağlı müasir təcrübədən istifadə istiqamətlərinin müəyyən edilməsi və elmi əsaslandırılması.

Açar sözlər: investisiya cəlbediciliyi, investisiyalar, investorlar, investisiya amilləri, təsərrüfat subyektləri.

Giriş

İnvestisiya məsələlərinin və vəzifələrinin öyrənilməsi həmişə iqtisad elminin diqqət mərkəzində olmuşdur. Bu onunla bağlıdır ki, investisiyalar bütövlükdə iqtisadi artım prosesini müəyyən edən iqtisadiyyatın ən dərin əsaslarına təsir edir, lakin onların elmi tədqiqat predmeti kimi populyar olmasına baxmayaraq, onların müəyyənləşdirilməsinə, mahiyyəti və iqtisadi məzmununa vahid yanaşma hələ çox işlənməmişdir. Müasir ədəbiyyatda həmin kateqoriyalar müxtəlif formada şərh olunur və müəyyən edilir. Bu kateqoriyanın təsvir olunduğu və qiymətləndirildiyi, eyni zamanda kifayət qədər aydın olmayan elementlərin şərhi həddindən artıq azdır.

“İnvestisiya cəlbediciliyi” kateqoriyasının məzmunu və ona olan müasir yanaşmalar

“İnvestisiya cəlbediciliyi” kateqoriyasının mahiyyətini açmazdan əvvəl, zənnimizcə, onun əsas elementlərini nəzərdən keçirmək lazımdır. İnvestisiya iqtisadi sistemdə həm makro, həm də mikro səviyyədə ən çox istifadə olunan kateqoriyalardan biridir. Bununla bağlı əsas nəzəri yanaşmaları nəzərdən keçirək.

İnvestisiya nəzəriyyəsi öz inkişafında bir neçə mərhələdən keçmişdir. Bu məsələyə dair ilkin işi Avstriya iqtisadi məktəbinin işini hesab etmək olar, bu yanaşmada investisiyalar gələcəkdə onların ödənilməsi məqsədilə müasir ehtiyacların ödənilməsi mübadiləsi kimi şərh olunur. Keçən əsrin 20-30-cu illərində maliyyə nəzəriyyəsinin bir elm kimi meydana çıxması İ.Fişerin faiz dərəcələri nəzəriyyəsinə dair əsərləri meydana çıxarmışdır [10, s. 340]. Əsas vəsaitlərin qiymətləndirilməsinə nəzəri yanaşma isə D.Vilyamsın [11] əsərlərində təklif edilmişdir.

Ümumi yanaşma çərçivəsində investisiyalar investorlar tərəfindən mənfəət əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət obyektlərinə qoyulan bütün növ maliyyə, maddi və digər aktivlər

kimi başa düşülür. Fransız iqtisadçısı P.Masse deyir ki, kapital qoyuluşlarına verilə bilən tərif belədir: "investisiya - qoyulan vəsaitlərin köməyi ilə bugünkü ehtiyacların ödənilməsinin gələcəkdə gözlənilən ehtiyacların ödənilməsi ilə mübadilə aktıdır." [6, s. 250].

J.Keyns 1936-cı ildə investisiyanı "...müəyyən dövrdə istehsal fəaliyyəti nəticəsində kapital mülkiyyətində cari artım" kimi müəyyən etmişdir. İnvestisiya, "...müəyyən dövr üçün mənfəətin istehlak üçün istifadə olunmayan hissəsidir" [9, s. 125].

Bu tərif investisiyaların əsas xüsusiyyətlərini aydın şəkildə müəyyən edir. Onlar bir tərəfdən yığılmış gəlirin məbləğini, investisiya resurslarının həcmini (potensial investisiya tələbini) əks etdirir, digər tərəfdən kapital mülkiyyətinin dəyərinin artımını müəyyən edən investisiyalar (xərclər) şəklində görünür (realizə edilmiş investisiya tələbi və təklifi). İnvestisiyaları gələcəkdə müəyyən təsirlər əldə etmək üçün bir fəaliyyətə yatırılan mallar, dəyərlər toplusu kimi şərh etməsi çox yayılmışdır.

Geniş mənada müasir iqtisadiyyatçı K.R.McConnell tərəfindən investisiyalar aşağıdakı kimi başa düşülür: "...istehsal və yığım xərcləri və əmtəə ehtiyatlarının artması". İnvestisiya malları və istehsal vasitələri, yəni kapital kimi - "...əmtəə və xidmətlərin istehsalı üçün istifadə edilən insan tərəfindən yaradılmış resurslar: yəni insanların ehtiyaclarını bilavasitə ödəməyən əmtəələr..." [5, s. 655].

E.C.Dolan, K.D.Kempbell hesab edirlər ki, təsərrüfat subyektləri tərəfindən qoyulan investisiyalar iki komponentdən ibarətdir. Bunlardan birincisi - əsas kapitala investisiya qoyuluşudur, yəni istehsalat avadanlıqları, kompüterlər və istehsalat təyinatlı binalar kimi yeni istehsal olunan əsas nemətlərin əldə edilməsidir. İkinci komponent - istehsal prosesində istifadə olunacaq xammal ehtiyatlarının və satılmamış hazır malların yığımı olan əmtəə-material ehtiyatlarına investisiyalardır [3. s, 228].

Yuxarıda göstərilənlərə bənzər investisiyanın mahiyyəti anlayışına amerikalı alimlərin - aqrobiznes sahəsinin mütəxəssisləri E.Kastl, M.Bekker və A.Nelsonun elmi işlərində rast gəlinir. Onlar investisiya dedikdə təsərrüfat fəaliyyəti prosesində əsas və dövriyyə fondlarına əlavə investisiyaları başa düşürlər. Bundan əlavə, kənd təsərrüfatında bu iqtisadçılar investisiyaları dörd kateqoriyaya bölürlər: 1) fiziki və ya mənəvi cəhətdən köhnəlmiş avadanlıqların dəyişdirilməsi; 2) xərcləri azaltmaq və gəlirləri artırmaq məqsədi ilə yeni texnologiyaların, habelə mexanikləşdirmə vasitələrinin tətbiqi və inkişafı; 3) mövcud müəssisələrin və istehsal güclərinin genişləndirilməsi; 4) yeni istehsalatların inkişafı [4, s.135].

Onların, aqrosənaye sistemində, o cümlədən kənd təsərrüfatında "kapital qoyuluşlarının özəlliyi ondan ibarətdir ki, onların effekti cari sərmayələrdən fərqli olaraq dərhal görünmür... fermer malqaranın qida rasionunu böyük zərər vurmadan dəyişə bilər, lakin yeni tikilmiş bina "işləmirsə", düzgün olmayan qərarı dəyişdirmək çox vaxt və pul tələb edəcəkdir. Ümumiyyətlə, əsaslı xərclərin yenidən təyin edilməsi çox baha başa gəlir" fikri ilə razılaşmamaq qeyri-mümkündür [4, s.135].

80-ci illərə qədər yerli iqtisadi ədəbiyyatda "investisiya" termini təkrar istehsal proseslərini təhlil etmək üçün praktiki olaraq istifadə edilməmişdir, investisiyalar daha çox kapital qoyuluşları ilə eyniləşdirilirdi.

Xarici ədəbiyyatda həm "investisiya" termini, həm də "kapital qoyuluşu" termini istifadə olunur. Belə ki, D. Nortkott investisiya qərarları ilə kapital qoyuluşları üzrə qərarları fərqləndirir. Kapital qoyuluşlarını o, uzunmüddətli investisiyaların istiqamətlərini və onların maliyyələşmə mənbələrini müəyyən edən uzunmüddətli xərclər büdcəsinin maddəsi kimi hesab edir [8]. Onun fikrincə, maliyyələşdirmə mənbələri məsələsi investisiya qərarlarının ayrılmaz hissəsidir, kapital qoyuluşları isə investisiya layihələrinin seçimi ilə sıx bağlıdır. Bu məsələlərin hər biri bir-birinə təsir edir. Kapital qoyuluşu hesab edilən investisiyalar avadanlığın alınmasını, eləcə də müəssisənin strateji və operativ məqsədlərinə nail olmaq qabiliyyətinin yaxşılaşdırılması ilə bağlı digər xərcləri əhatə edir. Kapital qoyuluşları (kapital qoyuluşu) müəssisənin aktivlərinə uzunmüddətli, riskli vəsait qoyuluşu haqqında qərarların qəbul edilməsini nəzərdə tutur. Bu qərarlar şirkətin daxili sosial mühitində qəbul edilir və onun həyatının bütün sahələrinə (şirkətin əməkdaşları da daxil olmaqla) təsir göstərir. İnvestisiyaların keyfiyyətinə yalnız kapital qoyuluşlarının səmərəliliyini

düzgün qiymətləndirməklə təminat vermək olar.

Qeyd edək ki, buna uyğun olaraq investisiyaların iqtisadi mahiyyətinin müəyyənləşdirilməsində xərc və resurs yanaşmaları yaranmışdır. Xərc yanaşması ilə investisiyalar əsas fondların sadə- və genişləndirilmiş təkrar istehsalı üçün xərclər kimi baxılırdı.

Resurs yanaşmasının əsasını investisiyanın tərkib elementi kimi resursların bölüşdürülməsi təşkil edirdi. Sonuncular əsas fondların təkrar istehsalı üçün zəruri maliyyə resursları hesab olunurdu. Təhlil obyektinin statik xarakteristikası, bütöv proses kimi investisiyaların kifayət qədər tədqiq edilməməsi hər iki yanaşmanın çatışmazlığı idi.

Fikrimizcə, aşağıdakı tərif "investisiya" anlayışının müasir şərhinə kifayət qədər yaxındır: "Əsas kapitala (əsas istehsal vasitələrinə), ehtiyatlara, habelə uzun müddətə ayrılmasına material və pul vəsaitlərinin ayrılmasını tələb edən digər iqtisadi obyektlərə və proseslərə qoyuluşlara investisiyalar deyilir." Hal-hazırda elmi tədqiqatçıların əsərlərində, eləcə də praktik fəaliyyətlərdə həm investisiyaların, həm də investisiya prosesinin geniş şərhi ümumi qəbul edilir. Belə ki, V.Boçarov hesab edir ki, investisiyalar sahibkarlıq fəaliyyəti obyektlərinə qoyulan bütün növ əmlak və intellektual dəyərləri ifadə edir, bunun nəticəsində mənfəət (gəlir) formalaşır və ya sosial effekt əldə edilir. [2, s.74.].

Milli tədqiqatçılarımız "investisiya" kateqoriyasına fərdi yanaşma nümayiş etdirirlər. Məsələn, Nurəliyeva R., Namazova C. qeyd edirlər ki," investisiyanın mahiyyəti onun bilavasitə təzahür sferası ilə bağlıdır. Bu baxımdan iqtisadi mahiyyət və maraqlar daşıyıcısı kimi, investisiya istər mikro, istərsə də makrosəviyyədə istənilən iqtisadi sistemin iqtisadi idarə edilmə subyektidir" [1, s.19].

Yəqin ki, məhz problemə müxtəlif yanaşmalar, investisiyaların həyata keçirilməsi məqsədinin, istənilən sosial effektin əldə edilməsi haqqında təriflərin ortaya çıxmasına imkan verir.

"İqtisadi effekt" anlayışının bu cür dar yönümlü tərifləri investisiyanın mahiyyətinə ziddir və onu iqtisadi kateqoriya kimi yox edir. İnvestisiya qoyulmasının yeganə məqsədi iqtisadi effekt əldə etmək, yəni mənfəət (gəlir) əldə etmək ola bilər. Bəzi yerli və xarici alimlər oxşar fikrə tərəfdar çıxır.

Bu cür iqtisadi kateqoriyanın investisiya cəlbediciliyi kimi istifadə edilməsi bir çox müəlliflər tərəfindən investisiya fəaliyyətinin xüsusiyyətlərini qiymətləndirmək üçün, əsasən onun vəziyyətinin və perspektivlərinin təhlili mərhələsində, onları müəyyən dərəcədə keyfiyyətcə xarakterizə etmək və investisiya fəaliyyətinin uğurla aparılması imkanlarını göstərmək üçün təqdim olunur.

İnvestisiya cəlbediciliyi və investisiya fəaliyyətinin əlaqəsi

İnvestisiya cəlbediciliyi ölkə, sənaye, region, müəssisə səviyyəsində nəzərdən keçirilə bilər. Bu sistemdəki müəssisə konkret layihələrin həyata keçirildiyi vasitələrin tətbiqi üçün son nöqtədir. Hər bir layihənin cəlbediciliyi isə adları çəkilən bütün komponentlərin cəlbediciliyi ilə müəyyən ediləcək. Başqa sözlə, strateji investor üçün hər hansı sahəyə investisiya yatırmaq üçün arqumentlər, bu sahənin milli iqtisadiyyat miqyaslarında inkişafı böhran vəziyyətində olarsa, kifayət qədər inandırıcı olmayacaq. Layihənin bütün maliyyə faydalarına baxmayaraq, dövlətdə siyasi və iqtisadi qeyri-sabitlik riski tələb olunan həcmdə xarici kapitalın cəlb edilməsinə imkan verməyəcək.

İqtisadi ədəbiyyatda "investisiya cəlbediciliyi" anlayışının mahiyyətinin tərifi üçün vahid yanaşma hələ işlənib hazırlanmamışdır.

Əksər iqtisadçılar investisiya iqlimi, investisiya cəlbediciliyi anlayışlarının məzmununu istər ölkə iqtisadiyyatı, sənaye, bölgə, müəssisə ilə bağlı təqribən eyni şəkildə şərh edirlər, lakin bu anlayışların strukturunu, metodlarını və qiymətləndirmə metodikalarını dəqiqləşdirərkən alimlərin rəyləri əhəmiyyətli dərəcədə fərqlənir.

Makro səviyyədə investisiya cəlbediciliyi dedikdə, milli iqtisadiyyatın inkişafı məqsədilə bütün təsərrüfat subyektləri, eləcə də xarici investorlar üçün dövlət tərəfindən sərfəli investisiya qoyuluşu üçün yaradılmış şərait (iqtisadi, hüquqi, siyasi, sosial və s.) başa düşülür. Makrosəviyyədə investisiya cəlbediciliyi aşağıdakı amillərlə müəyyən edilir (şəkil 1.).

V.Maşkin vurğulayır ki, investisiya cəlbediciliyi anlayışı, bu və ya digər investisiya obyektinin seçimində investorun üstünlüklərinə təsir edəcək investisiya şərtlərinin mövcudluğu deməkdir. Onları eyni sıraya qoyan ümumi cəhətləri ayırmaq çətin deyil: öz büdcəsinin və öz idarəetmə sis-

teminin mövcudluğu. Hər bir səviyyənin obyektinin (və müvafiq olaraq, onun investisiya cəlbediciliyinin) özünəməxsus əhəmiyyətli xassələri var, lakin bu sıradakı bölgə xüsusi yer tutur: xüsusiyyətlərinə görə öz spesifikasına malikdir və eyni zamanda, strukturun bütövlüyünə görə unikal deyil. Məhz bu xüsusiyyət bölgələri bir-biri ilə müqayisə etməyə imkan verir. [7, s.17].

Fikrimizcə, yuxarıda araşdırılan investisiya cəlbediciliyi anlayışlarını ümumiləşdirərək, iqtisadi sahələrin investisiya cəlbediciliyini inkişaf perspektivləri, investisiyaların gəlirliliyi və investisiya risklərinin səviyyəsi baxımından iqtisadiyyatın ayrı-ayrı sahələrinin ayrılmaz xarakteristikası kimi başa düşmək təklif olunur.



Şəkil 1. İnvestisiya cəlbolunmasına təsir edən amillər.

Mənbə: şəkil müəllif tərəfindən tərtib edilib.

Yuxarıda göstərilənlərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, investisiya cəlbediciliyi – sahə resurslarından istifadənin səmərəliliyi, kapitalın gəlirliliyinin, istehsalatın texniki-iqtisadi səviyyəsinin, məhsulların keyfiyyətinin və rəqabət qabiliyyətinin artırılması, maliyyə vəziyyətinin sabitliyi əsasında onun özünüinkişaf qabiliyyəti ilə xarakterizə olunan iqtisadi kateqoriyadır. Aqrar sektorun investisiya cəlbediciliyi dedikdə, öz vəsaitləri və digər investorların vəsaitləri hesabına onun inkişafına investisiya qoyuluşunun perspektivliyi, faydalılığı, səmərəliliyi və riskinin minimuma endirilməsi baxımından ümumiləşdirilmiş xarakteristika başa düşülür.


Qeyd edək ki, investisiya qoyulması və investisiya fəaliyyəti eyni anlayışlar deyil, eyni zamanda onlar prinsip etibarilə fərqlənmirlər. İnvestisiya qoyulması investisiya fəaliyyətinin tərkib və ən mühüm hissəsidir və daha çox onun praktik tərəfini xarakterizə edir. Yəni investisiya qoyulması və investisiya fəaliyyəti iki prosesdir. Üstəlik, birinci halda söhbət nisbətən dar, ilkin mənada investisiya prosesindən gedir, ikinci halda isə - bir sıra mərhələləri (onlardan biri investisiya qoyulmasıdır), struktur elementlərini, səviyyələrini, hədəf məqsədlərini, həyata keçirmə formaları və metodlarını, təsir istiqamətlərini özündə birləşdirən müəyyən prinsiplərə əsaslanan mürəkkəb çoxölçülü proses nəzərdə tutulur.

Bununla əlaqədar olaraq biz *investisiya fəaliyyətini* iqtisadi sistemin inkişaf potensialını xarakterizə edən obyektlərin, subyektlərin, alətlərin, həyata keçirmə metodlarının və investisiya prosesinin aparılma istiqamətlərinin məcmusu kimi müəyyən edək.

İnvestisiya fəaliyyətinin subyektləri investisiya layihələrinin həyata keçirilməsinin bütün iştirakçılarıdır: investorlar, sifarişçilər, iş icraçıları, investisiya fəaliyyəti obyektlərinin istifadəçiləri, təchizatçılar, bank, sığorta və vasitəçi təşkilatlar, investisiya birjaları və s.

İnvestorlar şəxsi, borc və investisiya formasında cəlb edilmiş vəsaitlərin birləşdirilməsini və onların hədəf istifadəsinin təmin edilməsini həyata keçirən investisiya fəaliyyətinin subyektləridir.

İnvestorlar və ya investisiya subyektləri həm ayrı-ayrı sahibkarlar, həm də təşkilatlar (müəssisələr) və onların birlikləri, dövlət orqanları və konkret obyektə vəsait qoyuluşundan mənfəət (və ya digər faydalı effekt) almağı planlaşdıran investisiya fondları ola bilərlər (bax şəkil 2).



Şəkil 2. Potensial investorların təsnifatı.

Mənbə: şəkil müəllif tərəfindən tərtib edilib.

İnvestorlar, ilk növbədə, maliyyə vəsaitlərinin və digər kapitalların birbaşa investorları, habelə investisiya məhsullarının (tikilmiş zavodlar, fabriklər, nəqliyyat qurğuları, rabitə xətləri və obyektləri və s.) istifadəçiləri rolunda çıxış edirlər. İnvestorlar yeni yaradılmış və ya mövcud olan müəssisələrin (istehsalatların) əvəzinə vəsait yatırırlar, onlar da səhmlərin satışından əldə edilən vəsaitlərə öz istehsalının modernləşdirilməsini və ya diversifikasiyasını həyata keçirirlər.

Qeyd edək ki, iqtisadiyyatın investisiya sferasının bazar transformasiyasını əks etdirən investisiya fəaliyyəti onun aşağıdakı subyektləri tərəfindən həyata keçirilir:

1. İnvestorlar - investisiya resurslarının istehlakçıları və resursların təchizatçıları;
2. Yeni yaradılmış əsas vəsaitlərin, habelə mövcud kapital ehtiyatı (potensial) əsasında istehsal olunan istehlak mallarının "istifadəçiləri";
3. İnvestisiya sferasının infrastrukturunun subyektləri (əsasən maliyyə və informasiya bazarlarının agentləri).

İnvestisiya sferasının subyektlərinin iqtisadi qarşılıqlı əlaqəsi gələcək iqtisadi artım imkanlarını əks etdirən bazar kateqoriyaları kimi investisiya tələbi ilə təklif arasında inkişaf edən nisbətlərdə özünü göstərir. Bu xüsusiyyət iqtisadi proseslərin iqtisadi qeyri-sabitliyi şəraitində xüsusi əhəmiyyət kəsb edir, onların dəyişməsi onların məcmusundan səmərəsiz istifadəyə səbəb ola bilər. Kapital aktivlərinin və onların strukturunun birləşmələrinin investisiya potensialından istifadənin effektivliyinə mənfi təsirin aradan qaldırılması üçün bunu nəzərə almaq vacibdir. Əsas kapitalın fəaliyyət dinamikası və əsas istehsal fondlarının tədavülünün səmərəliliyi yığım prosesinin qanunauyğunluqlarının təzahürü ilə, onun tərkibindəki yığım fondundan, hesabına formalaşan hissədən səmərəli istifadə etməklə qarşılıqlı surətdə bağlıdır.

İstehsalın bu inkişafı onun intensivləşməsinə yığımın təsirinin artmasına səbəb olur. Bu qanunauyğunluq təkcə iqtisadi artımın yeni keyfiyyətinə keçiddə özünü büruzə vermir, həm də istehsalın və ümumi daxili məhsulun (ÜDM) yenidən qurulması prosesində özünü göstərir. Qeyd etmək

vacibdir ki, yığım fondu təkcə istehsal ehtiyatlarının məsrəflərindən formalaşmır, həm də amortizasiya fondunu özündə cəmləşdirir, onun payı ÜDM-in kapital tutumunun dinamikası və əmək resurslarından istifadə intensivliyi ilə müəyyən edilir. Yığımın nəzəri qanunauyğunluqları onun istehsalın strukturuna təsirinin güclənməsində, habelə mövcud istehsalın yenilənməsi və yeni obyektlərin tikintisi üçün investisiya potensialından rasional istifadənin zəruriliyi və imkanlarında özünü göstərir. Eyni zamanda, iqtisadiyyatın real sektorunda mühüm amil kimi yığımın səmərəliliyinə əmək məhsuldarlığının yüksəldilməsi və sosial problemlərin həlli şəraitində nail olmaq olar. Sonuncu amili nəzərə alaraq qeyd etmək lazımdır ki, xüsusilə istehsalın intensivləşdirilməsi şəraiti nəzərə alınmaqla, yığım fondu istehlaka da xidmət edir və istehsal həcmlərinin keyfiyyətcə artması istehlak fondunun artmasına şərait yaradır. Qeyd etmək vacibdir ki, iqtisadi islahatlar dövründə əmək məhsuldarlığı kəskin şəkildə aşağı düşmüşdür, ona görə də dövlət orqanları müxtəlif əlaqəli sənaye sahələrinin sənaye müəssisələrini elmi, texniki, ticarət və bank bölmələri ilə birləşdirən iri dövlətlərarası və regionlararası korporasiyaların yaradılmasına kömək etməlidirlər.

Müəssisələrin və korporasiyaların bu cür restrukturizasiyası onların rentabelliyini, gəlirlərinin artırılmasını, əməkhaqqının, vergilərin və investisiyaların artırılmasını təmin edə bilər. İstehsalın sabitləşməsi və artımı üçün şərait kimi xüsusilə diqqətəlayiq məqam kimi investisiya potensialından istifadə edilməsi, iqtisadi münasibətlərin genişləndirilməsi, bunun üçün zəruri şəraitin yaradılması, o cümlədən gömrük maneələrinin aradan qaldırılması, əmtəə və kapital bazarlarının inkişafı və s. məsələlər qeyd olunmalıdır.

Nəticə

İnvestisiya cəlbediciliyi məsələlərinin araşdırılmasına yekun vuraraq, “investisiya cəlbediciliyi” anlayışı ilə bağlı bir sıra mühüm dəqiqləşdirmələr aparılmalıdır. İlk növbədə, müəllifin fikrincə, investisiya cəlbediciliyini dar və geniş mənada ayırmaq lazımdır.

Dar mənada investisiya cəlbediciliyi, investisiya qoyulma obyektinin seçimi ilə bağlı dinamikanın, təsərrüfat subyektinin cari vəziyyətinin və investorun üstünlükləri sistemi üçün onun proqnozunun əks etdirilməsinin inteqral nəticəsi kimi başa düşülməlidir.

Geniş mənada investisiya cəlbediciliyi, fikrimizcə, müəyyən bir təsərrüfat subyektinə investisiya qoyuluşunun məqsədəuyğunluğu səbəbi ilə ortaya çıxan sosial-iqtisadi, siyasi, maliyyə və idarəetmə münasibətləri sistemi kimi başa düşülməlidir.

ƏDƏBİYYAT

1. Namazova, Cəmilə Bayramalı qızı. İnvestisiya fəaliyyəti və audit nəzarətinin təşkili metodologiyası: monoqrafiya / C. B. Namazova; elmi red. Z. Ə. Səmədzadə. - Bakı: CBS Polygraphic Production, 2012. - 216 s.: cədvəl, il.; 24,5 sm. - Biblioqr.: s. 197-213][Nurəliyeva R. Investisiya Fəaliyyətinin Təşkili, Təfəkkür, Bakı, 2012.-251 s.
2. Бочаров, В.В. Финансово-кредитный механизм регулирования инвестиционной деятельности предприятий: Учеб. пособие / В. В. Бочаров, Р. Г. Попова; Санкт-Петербург. ун-т экономики и финансов, Каф. финансов. - СПб.: Изд-во Санкт-Петербург. ун-та экономики и финансов, 1993. - 85 с
3. Долан, Э.Д. Деньги, банковское дело и денежно-кредитная политика: [Пер. с англ.] / Эдвин Дж. Долан, Колин Д. Кэмпбелл, Розмари Дж. Кэмпбелл. - Москва: Худож. лит; Л.: Ленингр. отд-ние, 1991. - 446 с
4. Касл Э., Беккер М., Нелсон А. Эффективное фермерское хозяйствование. Монография. Пер. с англ. – М: ВО «Агропромиздат», 1991. – 496с
5. Макконнелл, Кэмпбелл Р.Экономикс [Текст] : принципы, проблемы и политика: [в 2 т.: пер. с англ. 11-го изд.] / Кэмпбелл Р. Макконелл, Стэнли Л. Брю. - Москва: Республика, 1993? 1056 с.
6. Массе П. ритерии и методы оптимального определения капиталовложений [Текст] / Пьер Массе ; Пер. с фр. Ф. Р. Окуневой и А. И. Гладышевского ; Науч. ред. и вступ. статья А.

В. Жданко. - Москва : Статистика, 1971. - 503 с
7. Машкин В.А. Управление инвестиционной привлекательностью реального сектора экономики региона // Север промышленный. 2009. № 9. С. 15-19
8. Норткотт, Дерил.Принятие инвестиционных решений / Д. Норткотт; Пер. с англ. под ред. А. Н. Шохина. - Москва: Банки и биржи, 1997. - XXVIII, 219 с.
9. Общая теория занятости, процента и денег [Текст]: [пер. с англ. Н. Н. Любимова] / Дж. М. Кейнс; [ ]. - Москва: Гелиос АРВ, 2011. - 350 с
10. Fisher I. The Debt-Deflation Theory of Great Depressions Wayback Machine. - Econometrica. - 1933. - № 1(4), pp. 337-357
11. Williams J. Theory of Investment Value. Cambridge,Mass: Harvard University Press. 1938.

Паша Аллахверди оглы Махмудов
докторант Азербайджанского Университета Кооперации
E-mail: pasha.mahmudov.98@mail.ru

Современные основы категории «инвестиционная привлекательность»

Резюме

Цель исследования – заключается в анализе существующих теоретических и концептуальных основ категории «инвестиционная привлекательность».

Методология исследования – системный подход, сравнительный анализ.

Практическая ценность исследования – возможность его использования в качестве научного ресурса в исследованиях, связанных с экономикой инвестиций.

Результаты исследования – обобщены теоретические основы аспектов категории» инвестиционная привлекательность».

Оригинальность и научная новизна исследования – выявление направлений и научное обоснование использования современного опыта, связанного с уточнением категории инвестиционной привлекательности.

Ключевые слова: инвестиционная привлекательность, инвестиции, инвесторы, инвестиционные факторы, хозяйственные субъекты.

Paşa Allahverdi Mahmudov
PhD student, Azerbaijan University of Cooperation
E-mail: pasha.mahmudov.98@mail.ru

Category of investment attractiveness and its current content

Summary

The purpose of the study is to analyze the existing theoretical and conceptual foundations of the "investment attractiveness" category.

Research methodology - systematic approach, comparative analysis.

The applied importance of the research - the possibility of use as a scientific resource in researches related to the investment economy.

The results of the research - the theoretical foundations of the aspects of the category "Investment attractiveness" are summarized.

Originality and scientific novelty of the research - identification of the directions of use of modern experience in clarifying the category of investment attractiveness and scientific justification.

Key words: investment attractiveness, investments, investors, investment factors, business entities.